# Regionlarla tanışlıq şagirdlərdə vətənpərvərlik hisslərinin formalaşmasında əvəzsiz rol oynayır

## Qəbələ məktəblilərinin maarifləndirici tur-aksiyası zəngin təəssüratlarla başa çatıb

*23-26 mart tarixlərində “Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində Qəbələ rayon məktəblərinin IX-XI sinif şagirdləri Gəncə şəhərinin, Şəmkir və Göygöl rayonlarının tarixi abidələri, mədəniyyət mərkəzləri, eləcə də son illərdə inşa edilən turizm, istirahət və sosial obyektləri ilə yaxından tanış olmuşlar.*



24 mart tarixdə məktəblilər Gəncə şəhərində böyük mütəfəkkir, dahi Azərbaycan şairi Nizami Gəncəvinin türbə kompleksini, Nizami Gəncəvi Muzeyini, İmamzadə Dini Memarlıq Kompleksini, Şah Abbas Məscidini, Çökək Hamamı, Uğurlu xan Karvansarayını gəzmiş, Gəncə xanlığının sonuncu hökmdarı Cavad xanın türbəsi, açıq səma altında muzeyi xatırladan Cavad xan küçəsi, Məhsəti Gəncəvi adına Mərkəz və Gəncə çayı ətrafında yeni istifadəyə verilmiş bulvar kompleksi ilə yaxından tanış olmuşlar. Növbəti gün—25 mart tarixdə Qəbələ məktəbliləri Şəmkir rayonuna səfər etmişlər. Aksiya iştirakçılarını Heydər Əliyev Mərkəzinin qarşısında Şəmkir rayon icra hakimiyyətinin başçısı Alimpaşa Məmmədov qarşılayıb. Daha sonra məktəblilər Heydər Əliyev Mərkəzində ulu öndərin zəngin irsini əks etdirən fotoşəkillərə, ümummilli liderə həsr olunan kitablara baxıblar. Məlumat verilib ki, mərkəzdə ümummilli lider Heydər Əliyevin müxtəlif vəzifələrdə işlədiyi kabinetlərin və iş otaqlarının bənzərləri yaradılıb.- Şəmkir rayonunda olduqları müddət ərzində qəbələlilər Heydər Əliyev Mərkəzi, Şəmkir qalası, Bayraq Muzeyi, Alman Lüteran Kilsəsi və Zəka Gənclər Mərkəzi ilə yaxından tanış olmuşlar. Günün ikinci yarısı tur-aksiya iştirakçıları Göygöl rayonuna gəliblər. Məktəbliləri şəhər mərkəzində Göygöl rayon icra hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri - RİH başçısının müavini Kəmalə İbrahimova, rayon mədəniyyət və turizm şöbəsinin əməkdaşları, həmçinin şəhər ictimaiyyətinin nümayəndələri qarşılayıblar. Göygöl şəhərinin mahnı və rəqs kollektivləri məktəblilər qarşısında maraqlı musiqi proqramı ilə çıxış ediblər. Daha sonra tur-aksiya iştirakçıları Heydər Əliyev Mərkəzi, Bayraq meydanı, Bayraq muzeyi, Gənclər Mərkəzi və Alman evləri ilə yaxından tanış olublar. Göygöllə tanışlıqlarını



başa vuran tur-aksiya iştirakçıları Gəncə şəhərinə geri dönmüşlər. Axşam saatlarında “Ölkəmizi tanıyaq” layihəsinin Gəncə-Şəmkir-Göygöl istiqaməti üzrə maarifləndirici tur-aksiyasına qoşulan şagirdlər üçün Gəncə şəhərində Ramada Plaza oteldə “Nə? Harada? Nə zaman?” adlı intellektual yarış təşkil edilib. Yarışda Abşeron, Şəki, Şamaxı, Oğuz, Qəbələ və İsmayıllı rayonlarının məktəbliləri iştirak ediblər.



Əvvəlcə şagirdlər hər birində 6 nəfər olmaqla müxtəlif komandalara bölünüblər. On iki komandanın mübarizə apardığı turnirdə iştirakçılara müxtəlif sahələrə aid 20 sual təqdim olunub. İntellektual yarışda İsmayıllı rayonunun “Niyal” komandası birinci, “Babadağ” komandası isə ikinci yerə sahib olub. Qəbələ rayonunun “Qədim Qəbələ” komandası isə üçüncü yeri tutub. Qaliblərə münsiflər heyəti tərəfindən kubok və diplom, yarış iştirakçılarına sertifikatlar verilib. Həmçinin yüksək nəticə göstərən komandalara Qəbələ rayonundan qoşulan iştirakçılar tərəfindən qiymətli hədiyyələr təqdim olunub. Maarifləndirici tur-aksiyanın son günü 26 mart tarixdə “Ölkəmizi tanıyaq” tur-aksiyasının iştirakçıları nəcib təşəbbüsə də qoşulublar. Onlar Heydər Əliyev Park Kompleksinin ərazisində xatirə olaraq ağac əkiblər.



Beləliklə, Prezident İlham Əliyevin tapşırığı ilə həyata keçirilən “Ölkəmizi tanıyaq” layihəsinin Gəncə-Şəmkir-Göygöl istiqaməti üzrə maarifləndirici tur-aksiyası Qəbələ məktəblilərinin xoş xatirələri və zəngin səfər təəssüratları ilə başa çatıb.

**✍ Zahir KƏRİMOV,**
**RİH-nin İnformasiya təminatı və təhlil sektorunun müdiri.**

## 31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür

*200 il bundan əvvəl Vətənimizdə torpaq, sü, çörək verdiyimiz nankor ermənilər tarixi şərait, imkan yaranan kimi xalqımızın başına min cür faciələr gətirmiş, soyqırımları törətmişlər. 1918-ci ilin mart ayının sonu, aprel ayının əvvəllərində erməni daşnakları və bolşevik maskasına bürünmüş qatı erməni millətçiləri tərəfindən xalqımıza qarşı törədilmiş soyqırımdan 99 il keçir.*




1918-ci il martın 30-u gecə saatlarında Bakıda başlanan kütləvi qırğınlar 20 minə yaxın günahsız insanın, o cümlədən çoxlu sayda qoca, qadın və uşağın öldürülməsi ilə nəticələnib. Martın 30-dan aprelin 2-dək davam edən kütləvi qırğınlarda Stepan Şaumyanın rəhbərlik etdiyi erməni-bolşevik dəstələri Bakıda minlərlə insanı qətlə yetirib, müsəlman ziyarətgahlarını yandırıb, Bakı əhalisinin 400 milyon manatlıq əmlakını müsadirə edib. Kütləvi qırğınlar zamanı şəhərin ən möhtəşəm məscidi sayılan Təzəpir məscidi aramsız top atəşinə tutulub, ermənilər Bakının ən möhtəşəm memarlıq incilərindən olan “İsmailiyyə” binasını yandırıblar.

Azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı siyasəti təkcə Bakı şəhəri ilə məhdudlaşmayıb. Martın 31-də erməni daşnakları Şamaxı qəzasının 53 kəndində 8027 azərbaycanlını, o cümlədən 2560 qadın və 1277 uşağı qətlə yetiriblər.

Qubanın 162 kəndində öldürülən günahsız azərbaycanlıların sayı isə 16 mindən artıq olub. Erməni daşnakları Lənkəran, Muğan bölgəsi və Dağlıq Qarabağda minlərlə kəndi yandırıb, on minlərlə insanı vəhşicəsinə qətlə yetiriblər. 1918-ci il iyulun 15-də Azərbaycan Demokratik Respublikasının yaratdığı Fövqəladə Təhqiqat Komissiyası bu qırğınlarla bağlı çoxsaylı sənədləri toplayaraq hökumətə təqdim edib, 1919-cu ildə Azərbaycan parlamenti 31 Mart tarixinin Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunması barədə qərar qəbul edib.

Sovet hakimiyyəti illərində bu tarix yaddaşlardan silinsə də, müstəqillik dövründə tarixi sənədlər əsasında 31 mart 1918-ci ildə Azərbaycan xalqının başına gətirilən faciəvi hadisələrlə bağlı çoxsaylı araşdırmalar aparılıb, kitablar dərc olunub. 1998-ci il martın 26-da prezident Heydər Əliyev “Azərbaycanlıların soyqırımı haqqında” fərman imzalayıb.

Həmin gündən başlayaraq 31 Mart tarixi Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunur.

***«Qəbələ».***

## Əhalinin tibbi müayinədən keçirilməsi davam etdirilir

Fevral ayının 15-dən bugünədək rayonun səhiyyə ocaqlarında keçirilən aksiya zamanı 20 mindən artıq vətəndaş tibbi müayinə olunub. Xəstəlik aşkar edilən şəxslər rayon mərkəzi xəstəxanasında müalicə edilirlər. Müayinələrdən sonra 421 nəfər stasionar, 505 nəfər ambulator müalicəyə cəlb olunub, 24 nəfər isə müalicə üçün Bakı şəhərinə göndərilib.

Aksiyanın səmərəliliyini artırmaq üçün əhali arasında təbliğat işi davam etdirilir.

Bu aksiya bir daha onu göstərir ki, dövlət başçısının həyata keçirdiyi siyasətin fövqündə insan amili və vətəndaşların sağlamlığının qorunması məsələləri dayanır.

***«Qəbələ».***